*Dinimiz milli-mənəvi sərvətimizdir.* Heydər Əliyev

№ 06 (356) / İYUN 2021-Cİ İL

AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

# CƏMİYYƏT VƏ DİN

20
2001
2021



Biz indi böyük quruculuq işlərinə start vermişik. Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük. Əgər bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik. İndi nə qədər vəsaitin olursa-olsun, əgər sənin texniki imkanın yoxdursa, kadr potensialın yoxdursa, infrastruktur layihələri vaxtında icra edilməyibsə, bunların heç yüzdəbirini edə bilməzsən. Amma bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik. Biz “nəyi nə vaxt, necə etmək lazımdır bilirik” deyəndə, məhz bunu nəzərdə tuturduq.

Biz Ermənistana şans vermişdik və danışıqlarda iştirakımız, - mən bunu əvvəllər də demişəm, - bizim ən böyük güzəştimiz ola bilərdi. Ərazi bütövlüyü məsələlərində hər hansı bir güzəştdən söhbət gedə bilməzdi və bu mövqe bəllidir. Mən bunu Azərbaycan xalqına dəfələrlə çatdırmışdım ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik və bu mövqe xalq tərəfindən dəstəklənirdi. Çünki bunun başqa variantı ola bilməzdi. Danışıqlarda iştirakımız Ermənistana şans verirdi ki, bu məsələ qan tökülmədən öz həllini tapsın. Ancaq Ermənistan yəqin ki, bunu başqa cür yozurdu. Bəlkə də hesab edirdi ki, biz tərəddüd edirik. Bəlkə də hesab edirdi ki, biz öz ərazi bütövlüyümüzü bərpa etməyəcəyik. Bəlkə də hesab edirdi ki, biz bu vəziyyətlə barışa bilərik. Halbuki, mən dəfələrlə demişdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

**Prezident, Ali Baş Komandan İlham Əliyev**
Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşdəki nitqindən
26 iyun 2021-ci il

## DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB



Səh. 3

## “AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ”MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB



Səh. 6

## “XALQIMIZIN MİLLİ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU”



Səh. 7

## DQİDK YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ İLƏ MDTF-NİN İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ KEÇİRİLİB



Səh. 12

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 309-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 309-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinin birinci cümləsində, 6.4-cü, 6-1.2-ci, 6-1.3-cü maddələrində, 8-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-1.4-cü maddəsinin ikinci cümləsində, 12-1-ci maddəsinin ikinci hissəsinin 8-1-ci bəndində və beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.3-cü maddəsinin birinci cümləsində, 6.4-cü, 6-1.2-ci, 6-1.3-cü maddələrində, 8-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-1.4-cü maddəsinin ikinci cümləsində, 12-1-ci maddəsinin ikinci hissəsinin 8-1-ci bəndində və beşinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

2. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinin birinci cümləsində, 6.4-cü, 6-1.2-ci, 6-1.3-cü maddələrində, 8-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-1.4-cü maddəsinin ikinci cümləsində, 12-1-ci maddəsinin ikinci hissəsinin 8-1-ci bəndində və beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. 2.2-ci bəndə "həmin Qanunun" sözlərindən sonra "8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində," sözləri, "üçüncü cümləsində, üçüncü" sözlərindən sonra ", dördüncü" sözləri, "ikinci hissəsinin 9-cu bəndində," sözlərindən sonra "üçüncü hissəsində," sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.1-1-ci, 2.3-1-ci və 2.5-1-ci bəndlər əlavə edilsin:

"2.1-1. həmin Qanunun 22-ci maddəsinin dördüncü hissəsində və beşinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

"2.3-1. həmin Qanunun 22-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

"2.5-1. həmin Qanunun 6.3-cü maddəsinin birinci cümləsində, 6.4-cü, 6-1.2-ci, 6-1.3-cü maddələrində, 8-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-1.4-cü maddəsinin ikinci cümləsində, 12-1-ci maddəsinin ikinci hissəsinin 8-1-ci bəndində və beşinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur;";

2.4. 2.5-ci bənddə "on ikinci" sözləri "on birinci" sözləri ilə əvəz edilsin;

2.5. 2.6-cı bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun, 2.7-ci və 2.8-ci bəndlər ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 309-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 iyun 2021-ci il

## Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə və dövlət–din münasibətlərinin tənzimlənməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**Tərəqqi" medalı ilə**

Allahverdiyeva Səbinə Elbrus qızı
Babayev Vüqar Səyyad oğlu
Həziyev Əli Vəli oğlu
Hümmətov Vüqar Hümmət oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

İsmiyev Şəhriyar Muradxan oğlu
Paşazadə Tərxan Əlhəddin oğlu.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 iyun 2021-ci il

## Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20-ci ildönümünü ilə bağlı Dövlət Komitəsində qulluq keçən və xidmətdə fərqlənən adları aşağıda qeyd olunan dövlət qulluqçuları Komitə sədrinin əmri ilə "Fəxri Fərman"la təltif ediliblər:

- Abbasov İlkin İnşallah oğlu - Dini qurumlarla iş üzrə şöbənin tərkibində Dini təhsil sektorunun məsləhətçisi.
- Abdullayev Taleh Şakir oğlu - Şəki bölgəsi üzrə şöbənin müdiri.
- Abdullayev Yalçın İsa oğlu - Sumqayıt bölgəsi üzrə şöbənin müdiri.
- Abdullayeva Aysel Habil qızı - Ümumi şöbənin baş mütəxəssisi.
- Axundov Aqşin Firəddin oğlu - Xarici əlaqələr şöbəsinin müdir müavini.
- Baxşəliyev Ramil Hikmət oğlu - Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi.
- Bəhram Ədalətoğlu - İmişli bölgəsi üzrə şöbənin məsləhətçisi.
- Cavadov Amil Rafiq oğlu - Ümumi şöbənin müdiri.
- Dadaşov Raman Cəfər oğlu - İctimaiyyətlə əlaqələr şöbəsinin baş mütəxəssisi.
- Eyvazov Pərviz Alışan oğlu - Ağcabədi bölgəsi üzrə şöbənin baş məsləhətçisi.
- Əliyev Aqşin Qabil oğlu - Hüquq və qeydiyyat şöbəsi tərkibində Kadrlarla iş sektorunun müdiri.
- Əliyeva Samirə Vaqif qızı - Hüquq və qeydiyyat şöbəsinin baş mütəxəssisi.
- Əsgərova Aysel Mirəsgər qızı - Dinşünaslıq ekspertizası şöbəsinin məsləhətçisi.
- Fətullayeva Səidə Əliyusif qızı - Ümumi şöbənin baş mütəxəssisi.
- Xudayev Ramin Əmrah oğlu - Quba bölgəsi üzrə şöbənin müdir müavini.
- Qəni Səlim Nəriman oğlu - Ümumi şöbənin məsləhətçisi.
- Məmmədov Nahid Qədir oğlu - Dinşünaslıq ekspertizası şöbəsinin müdiri.
- Məmmədov Qağayı Məmmədağa oğlu - Lənkəran bölgəsi üzrə şöbənin müdiri.
- Məmmədova Nərminə Aydın qızı - İctimaiyyətlə əlaqələr şöbəsinin böyük məsləhətçisi.
- Səlimov Vüqar Surxay oğlu - Təhlil və proqnozlaşdırma şöbəsinin məsləhətçisi.
- Tağıyev Rasim Nağı oğlu - Tovuz bölgəsi üzrə şöbənin müdiri.
- Talıbov Namiq Vaqif oğlu - Maliyyə-təsərrüfat şöbəsinin məsləhətçisi.
- Vəliyev İlqar Məmməd oğlu - Zaqatala bölgəsi üzrə şöbənin müdiri.
- Yusubova Şəlalə Mayıl qızı - Hüquq və qeydiyyat şöbəsi tərkibində Kadrlarla iş sektorunun baş məsləhətçisi.

# Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı ilə əlaqədar nekroloq imzalanıb

Aleksandr Gennadyeviç İşein

Azərbaycanın pravoslav xristian icmasına ağır itki üz vermişdir. Tanınmış din xadimi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu, Rus Pravoslav Kilsəsinin Şuralararası İdarəsinin üzvü Aleksandr Gennadyeviç İşein 2021-ci il iyun ayının 10-da ömrünün 69-cu ilində vəfat etmişdir.

Aleksandr İşein 1952-ci il iyunun 13-də Rusiyanın Yaroslavl şəhərində anadan olmuşdur. Moskva Ruhani Seminariyasını bitirdikdən sonra o, uzun müddət Şimali Qafqazda din xadimi kimi fəaliyyət göstərmişdir.

1992-ci ildən Azərbaycanda dini fəaliyyətini davam etdirən Aleksandr İşein 1995-ci ildə ölkəmizdəki pravoslav prixodlarının rəhbəri vəzifəsinə təyin olunmuş, Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodunun qərarı ilə 1998-ci ildə Bakı və Xəzəryanı Yeparxiyanın, 2011-ci ildə Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu seçilmiş, daha sonra arxiyepiskop dini rütbəsinə layiq görülmüşdür.

Azərbaycana qəlbən bağlı olan və onu ikinci Vətəni hesab edən arxiyepiskop Aleksandr ölkəmizin ictimai və dini-mənəvi həyatında yaxından iştirak etmiş, dinlərarası və xalqlararası dostluq, qardaşlıq və etimad mühitinin daha da möhkəmləndirilməsinə, cəmiyyətdə konfessiyalararası harmoniyanın və etnik-dini tolerantlığın inkişafına sanballı töhfələr vermişdir.

Aleksandr İşein mötəbər beynəlxalq tədbirlərə qatılaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində diqqətəlayiq xidmətlər göstərmişdir.

Arxiyepiskop Aleksandrın din xadimi kimi səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 2002-ci ildə "Şöhrət" ordeni, 2012-ci ildə "Dostluq" ordeni və 2015-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış din xadimi, xeyirxah və nəcib insan Aleksandr Gennadyeviç İşeinin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Qəbri nurla dolsun!

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Fərəh Əliyeva**
**Mübariz Qurbanlı**
**Allahşükür Paşazadə**
**Milix Yevdayev**
**Aleksandr Şarovski**
**Robert Mobili**

# DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB



İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibəti ilə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə çiçəklər düzülüb.

Sonra Komitənin kollektivi Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib.



# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yenidən qurulan dövlətin dəyərlər sisteminin dəqiqləşdirilməsi mürəkkəb daxili və beynəlxalq vəziyyətdə dövlət quruculuğuna başlayan ölkəmiz üçün müstəsna əhəmiyyətə malik idi. Belə bir zamanda dövlətin dinə, eləcə də ölkədə fəaliyyət göstərən fərqli dini konfessiyalara və icmalara münasibətinin prinsipial məqamlarının müəyyənləşdirilməsi vacib hesab edilirdi. Müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahədə qanunvericilik bazası uğurla formalaşdırıldı. Ölkəmizdə yüksək səviyyədə tənzimlənən dövlət-din münasibətlərinin əsası xalqa ləyaqətlə xidmət edən Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Məhz Ulu Öndərin geniş dünyagörüşü, baxışları, siyasi bacarığı sayəsində Azərbaycan bütün ağır sınaqlardan şərəflə, üzüağ çıxa bildi. Xüsusilə vurğulanmalıdır ki, Heydər Əliyevin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət-din münasibətləri qurulub, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişib, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar olub. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsi ilə təsbit olunub və Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" Qanununda geniş şəkildə öz əksini tapıb. Şübhəsiz, vicdan azadlığı sahəsində hüquqi bazanın möhkəmləndirilməsi ölkədə tolerantlıq mühitinin gücləndirilməsinə, milli-mənəvi dəyərlərə münasibətin dəyişməsinə, insanlarımızın tarixi keçmişindən uzaqlaşmamasına, əcdadlarımızın maddi-mənəvi miraslarına sahib çıxılmasına xidmət edirdi. Uzun illər sonra respublikanın rayon, şəhər və kəndlərində məscidlərin tikilməsi, baxımsızlıqdan uçub dağılmış müqəddəs ocaqların bərpa edilməsi və yenidən qurulması, minarələrdən azan səsinin eşidilməsi, dini və milli bayramlarımızın sərbəst şəkildə, həm də yüksək səviyyədə qeyd edilməsi dövlətimizin milli-mənəvi dəyərlərimizə yüksək qayğısının bariz nümunəsidir.

"İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yenidən xəsarət gətirsinlər", - deyən Ulu Öndərimizin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri də 21 iyun 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasıdır. Dövlət Komitəsinin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini fəaliyyət sahəsində dövlət siyasətinin aparılması, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunması, eləcə də müvafiq icra hakimiyyəti orqanları ilə onların fəaliyyətinin əlaqələndirilməsi və digər vəzifələr qoyulub. Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi və dövlətin din siyasəti sahəsində müxtəlif funksiyalarını yerinə yetirir. Ümumiyyətlə, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Dövlət Komitəsi fəaliyyət göstərdiyi 20 il ərzində din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında

davamı səh. 4

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ



**Mübariz Qurbanlı**
*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*

əvvəli səh. 3

qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli dini cərəyanların təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilib və onların həllində müsbət nəticələr əldə olunub. Dini durumdakı neqativ halların aradan qaldırılması məqsədilə kompleks tədbirlər həyata keçirilib. Bu istiqamətdə Dövlət Komitəsi müvafiq dövlət qurumları, Qafqaz Müsəlmanları İdarəsi və digər dini konfessiyalarla birgə qarşılıqlı əməkdaşlıq edib.

Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri təkmilləşməkdə və möhkəmlənməkdədir. Azərbaycan hökumətinin vətəndaşların etiqad azadlığının təminatı sahəsində həyata keçirdiyi tədbirlər öz müsbət bəhrəsini verməkdədir. Hazırda Azərbaycan Respublikasında dini durum sabitdir, bu sahədə cərəyan edən proseslər və tendensiyalar nəzarətdədir. Təcrübə göstərir ki, bu gün dini sahədə ortaya çıxan əksər problemlərin kökündə İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir. Çünki dini maarifləndirmə düzgün aparıldığı zaman dini təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, qarşıdurmaların qarşısı alınır.

Maarifləndirmə işi Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Dini maarifləndirmə işinin Komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də televiziya proqramları, sosial şəbəkələr vasitəsilə də aparılmasına xüsusi diqqət yetirilir. Maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə Komitənin sifarişi əsasında hazırlanan "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır", "Üfüqdəki gələcək", "Oxu!", "Erməni saxtakarlığı və Alban irsi", "Erməni təcavüzü və məscidlərimiz" adlı sənədli filmlər ictimaiyyətə təqdim edilib. Dövlət Komitəsinin ideya müəllifliyi ilə eyni zamanda, "Dövlət və din", "Könüllülər hərəkatı və dini icmalar", "Biz birlikdə güclüyük", "Qarabağ Azərbaycandır", "Din və sosial media", "Ağoğlan məbədi", "Gəncəsər məbədi", "Tatev məbədi", "Xudavəng məbədi", "Yuxarı Əskipara məbədi", "Qubadlı rayonu Məmər kənd məscidi", "Müqəddəs Yelisey məbədi", "Ağdam Cümə məscidi", "Zəngilan İmam Hüseyn məscidi", "İrəvan Göy məscidi", "Şuşa Aşağı Gövhər ağa məscidi", "Şuşa Saatlı məscidi", "Füzuli şəhəri Hacı Ələkbər məscidi", "Xocavənd rayonu Amaras məbədi" videoçarxları da çəkilərək yayımlanır. Eyni zamanda, milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır; Mədəniyyət televiziyasında "Haqqın dərgahı", İctimai TV-də "Din və Cəmiyyət" , Space TV-də "İnam" verilişləri efirə gedir; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda videoroliklər, sosial çarxlar hazırlanır, ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil edilir. Bunlarla yanaşı, vətəndaşlarımızın, xüsusilə gənclərimizin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə Dövlət Komitəsi ayrıca, digər qurumlarla və Qafqaz Müsəlmanları İdarəsi ilə birgə ölkədə dini sahədə tolerantlıq mühitinin qorunması, müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı hörmət, birgəyaşayış, dözümlülük mühitinin möhkəmlənməsi, eyni zamanda dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində "Heydər Əliyev və milli-mənəvi dəyərlər", "Milli-mənəvi dəyərlərə baxış: tarixilik və müasirlik", "Dini radikalizm və onunla mübarizə üsulları", "İslam və sağlam ailə", "Dini icmaların cəmiyyətdə yeri və rolu", "Milli-mənəvi dəyərlərimiz və vətənpərvərlik ruhu", "Ənənəvi İslam dəyərləri və müasirlik", "Qeyri-ənənəvi dini cərəyanların təbliğat metodları və onların qarşısının alınması yolları", "Müasir dövrün çağırışları: ailə institutu və dini dəyərlərin vəhdəti", "İşğal altında qalmış abidələrimiz - tarixi yaddaşın izi ilə", "Milli-mənəvi dəyərlərimiz və müasirlik", "İşğal altında qalan abidələrimiz: vurulmuş ziyanın qiymətləndirilməsi", "Radikalizm və terrorizmin fəsadları", "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili", "Dini radikalizm və ekstremizmin yayılmasına qarşı mübarizə", "Xurafat və dini radikalizmlə mübarizədə qadınların rolu", "Multikultural və tolerant dövlət: tarixilik, varislik, müasirlik", "Dünyəvi dövlətdə din: Azərbaycan modeli", "Bakı prosesi: dini icmalar və vəzifələr", "Mənəvi dəyərlərin təbliği və dini icmalar", "Qeyri-hökümət təşkilatları və dini icmalar: birgə fəaliyyətin təşkili", "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər", "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər", "Müasir çağırışlar: dini durum və vəzifələr", "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik", "Dünyəvi dövlətdə din və təhsil" mövzularında tədbirlər həyata keçirir.

Bu müddət ərzində Dövlət Komitəsi maarifləndirmə işini təkcə ölkə daxili ilə məhdudlaşdırmayıb, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də fəaliyyətini davam etdirib. Ölkə hüdudlarından kənarda keçirilmiş beynəlxalq tədbir və konfranslarda Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, zəngin mənəvi-əxlaqi irsinin təbliği, eləcə də keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Ermənistan silahlı qüvvələri tərəfindən tarixi-dini abidələrimizə qarşı törədilmiş vandalizm aktlarının dünya ictimaiyyətinə çatdırılması prioritet istiqamət kimi müəyyənləşdirilib. Sözügedən istiqamətdə Dövlət Komitəsi tərəfindən Azərbaycan, ingilis, rus, alman, ərəb dillərində nəşr olunan "İşğal altındakı tarixi-dini abidələrimiz" kitabı informasiya mübarizəsində dolğun mənbə kimi çox effektiv nəticələr verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Multikulturalizm İli" (2016) və "İslam Həmrəyliyi İli" (2017) çərçivəsində dini radikalizmə qarşı mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, dövlət-din münasibətlərinin tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili, dini qurumlarla iş və s. istiqamətlərdə aparılan işlər xeyli uğurlu olub. Belə ki, Dövlət Komitəsi Prezident İlham Əliyevin həm "Multikulturalizm İli", həm də "İslam Həmrəyliyi İli" ilə bağlı tədbirlər planlarına uyğun olaraq qarşısına qoyulan məqsəd və vəzifələri uğurla həyata keçirməklə öz səlahiyyətləri çərçivəsində töhfələrə imza atıb.

Komitə aidiyyəti qurumlarla birgə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Qafqazda sülh naminə əməkdaşlıq", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru", "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" Birinci Beynəlxalq Bakı Forumu, "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə", "İslam maarifçiliyi və müasir dövr", "Tolerantlıq və birgəyaşayış modelləri: Yeni Avropa üçün Azərbaycan nümunəsi", "Alban Apostol kilsəsinin keçmişi və bu günü" , "İslam həmrəyliyi - zamanın çağırışı", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası , "Heydər Əliyev və Azərbaycanda Dinlərarası Harmoniya", "İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında", "İslam həmrəyliyi Türkiyə-Azərbaycan dostluğu timsalında" , "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında", "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikutural həyata töhfəsi", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi", "İslam həmrəyliyi İli: Azərbaycandan çağırış" mövzusunda beynəlxalq konfrans , "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq", "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzularında aidiyyəti qurumlarla birlikdə beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirib.

Ötən 20 il ərzində Dövlət Komitəsi tərəfindən respublikada dini durumu hərtərəfli öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla faydalı əməkdaşlığın qurulmasını təmin etmək istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Dövlət Komitəsi öz səlahiyyətləri çərçivəsində radikal dini cərəyanların və ekstremist qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində müvafiq qurumlarla, o cümlədən mərkəzi və yerli icra strukturları, hüquq-mühafizə orqanları ilə koordinasiyalı fəaliyyətin gücləndirilməsinə xüsusi diqqət yetirib.

Hesabat dövrü (20 il) ərzində ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması, siyahısının hazırlanması və bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsi baxımından da işlər davam etdirilərək müsbət nəticələrin əldə olunmasına gətirib çıxarıb. Xaricdən gətirilən, eləcə də ölkədə yeni nəşr olunan dini təyinatlı ədəbiyyat öyrənilib, təhlil olunub, onlardan zərərlilərinin adları ölkədə nəşri və yayılması məqsədəuyğun hesab edilməyən dini təyinatlı ədəbiyyat siyahısına daxil edilib. Ümumilikdə ötən 20 il ərzində idxalla bağlı Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 25 min 368 adda dini məzmunlu ədəbiyyata baxılıb. Eyni zamanda, Dövlət Komitəsi tərəfindən 2725 adda dini məzmunlu ədəbiyyatın nəşrinə razılıq verilib.

Təbii ki, cəmiyyətin bütün təbəqələrini əhatə edən bu fəaliyyətin özünəməxsus xüsusiyyətləri və çətinlikləri var. Lakin Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət, Prezident İlham Əliyevin onu uğurla davam etdirməsi və Birinci vitse-prezident, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti Dövlət Komitəsinin qarşısına qoyulmuş məqsədlərə çatmasına əlverişli zəmin yaradır. Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham

davamı səh. 5

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ

əvvəli səh. 4

Əliyev də milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasını prioritet vəzifə kimi qarşıya qoyub.

"Müstəqil Azərbaycan dövləti çox dərin milli-mənəvi dəyərlər üzərində qurulub", - deyən dövlət başçısı tərəfindən aparılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur və bəyənilir. Eyni zamanda, dövlət başçımız ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın əsas təminatçısı və himayədarıdır. Ümumiyyətlə, müstəqilliyimizin bərpasının ilk illərindən başlayaraq dövlət-din münasibətləri sahəsində irəli sürülən ideyaların bu günün reallıqları kontekstində oynadığı müsbət rol daha aydın görünür. Müasir dövrün çağırışları və Azərbaycanda dini münasibətlərin inkişaf səviyyəsi dinlə bağlı dövlət siyasətində yeni prioritetlər və hədəflər müəyyənləşdirir. Məlumdur ki, dünyəvi dövlət quruluşu Azərbaycan xalqının mühüm tarixi nailiyyətidir. Ölkəmiz unikal tarixi-mədəni şəraitə, dini sahənin özünəməxsus xüsusiyyətlərinə, demokratik prinsiplərə əsaslanan dövlət-din münasibətlərinə malikdir ki, bütün bunlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dövlətinin dini sahədə siyasəti dünyada gedən qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə alır. Müasir dünyada qloballaşma prosesinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın dini dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirir. Azərbaycanda dövlətin yürütdüyü din siyasəti qloballaşmanın dini və milli-mənəvi dəyərlərimizə mənfi təsirinin qarşısını alır.

Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Təkcə bir faktı qeyd edək ki, sovetlər zamanı ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, indi bu rəqəm 2253-ə çatıb, ölkəmizdə 16 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 933-ü İslam, 37-si isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə minlərlə məscid tikilib və əsaslı bərpa olunub. Bu proses indi də davam etməkdədir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncam və tapşırıqlarına uyğun olaraq Təzəpir, Bibiheybət, Əydərbəy, Şamaxı Cümə məscidlərində geniş tikinti və yenidənqurma işlərinin aparılması, Gəncədəki İmamzadə kompleksinin yenidən qurulması, Qafqazın ən möhtəşəm məscidi hesab edilən və Ulu Öndər Heydər Əliyevin adını daşıyan Heydər məscidinin, Cocuq Mərcanlıda Şuşa məscidinin oxşarının inşası və dini qurumlara dövlət büdcəsindən mütəmadi olaraq maliyyə vəsaitinin ayrılması xalqımızın ən yeni tarixinin şanlı səhifələrindəndir. Ötən müddət ərzində Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində tarixi kilsə və sinaqoqlar da təmir olunub, yeniləri inşa edilib. Bakı şəhərində Katolik kilsəsinin və dağ yəhudiləri üçün sinaqoqun inşası, Lüteran məbədinin bərpası və yenidən qurulması buna bariz nümunədir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu din siyasəti və onun tərkib hissəsi kimi tarixi dini abidələrin – məscid, kilsə, sinaqoqların bərpası, milli-mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrimizin təbliği və təşviqi, zəngin mədəni irsimizin beynəlxalq aləmdə tanıdılması Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu tərəfindən də uğurla həyata keçirilir. Çıxışlarında tolerantlıq, əmin-amanlığın Azərbaycanın ən böyük sərvətlərindən biri və heç də sabit olmayan dünyaya vacib bir mesaj olduğunu vurğulayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond qısa vaxtda məscidlərin, ziyarətgahların, xristian və yəhudi məbədlərinin tikintisi və bərpasında, Azərbaycan həqiqətlərinin, o cümlədən, ölkəmizdəki dini və milli dözümlülük ənənələrinin beynəlxalq aləmdə tanıdılmasında böyük uğurlara imza atıb. Son illər Fondun xətti ilə bir çox dini abidələr, o cümlədən, Xəzər rayonu Binə qəsəbəsində Möhsün Səlim və İmam Rza məscidlərində, Gəncə şəhərində Şah Abbas və Həzrət Zeynəb məscidlərində, Buzovna qəsəbəsində Cümə məscidində, Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahında, Bakı şəhərində yerləşən İmam Hüseyn məscidində təmir və bərpa işləri həyata keçirilib. Fondun dəstəyi ilə Bakıda yerləşən «Bakirə Müqəddəs Məryəm» Katolik Kilsəsi və Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsində yenidənqurma və bərpa işləri aparılıb.

Sevindirici haldır ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan dini abidələr, məscidlərin bərpasına dair layihə üzrə işlərə başlanılıb. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Şuşada yeni məscidin təməlinin qoyulması, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılması, həm də "Qazançı" kilsəsində bərpa işlərinin aparılması dövlətimizin milli-mənəvi, tolerantlıq dəyərlərinə verdiyi önəmin növbəti təzahürüdür. Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbənin əsasında da məhz xalqımızın milli dəyərlərə, birgəyaşayış ənənələrinə, tolerantlığa verdiyi önəm dayanır. Əldə etdiyimiz Zəfər həm də Azərbaycan multikulturalizminin, dinlərarası harmoniyasının qələbəsidir. Prezident İlham Əliyevin Şuşada "Xarıbülbül" festivalının açılışında bildirdiyi kimi, Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı var: "Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu, mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu, mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır".

Dini müstəvidə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il oktyabrın 10-da Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında müvafiq Fərman imzalayıb. Milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlət başçımızın bu addımı, eyni zamanda Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisidir. Fondun əsas missiyası Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

Fond yaradıldıqdan sonra onun strukturunun tam formalaşması bir neçə ay davam etdi və 2018-ci ilin əvvəllərindən başlayaraq fəaliyyət göstərməyə başladı. Fondun bu günədək öz Nizamnaməsinə uyğun olaraq gördüyü işlər əsasən üç istiqamət üzrə olub: şəhid və əlil ailələlərinə yardımlar göstərmək, ümumiyyətlə xeyriyyəçiliklə məşğul olmaq, mənəvi dəyərlərimiz, eyni zamanda onun tərkib hissəsi olan dini dəyərlərimiz sahəsində geniş maarifləndirmə işləri aparmaq, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin olunan bütün imam, imam müavini və mütəvəllilərə aylıq maddi dəstək göstərmək .

Bundan əlavə, ölkəmizdəki yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında 2018-ci il 09 fevral tarixli, 3654 nömrəli Sərəncam imzalayıb. Sərəncamda göstərildiyi kimi, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədini daşıyır. Azərbaycan İlahiyyat İnstitutu xalqın din sahəsində yüksək ixtisaslı kadrlara olan tələbatını beynəlxalq standartlara əsaslanaraq təmin edir, ilahiyyat sahəsindəki problemlərə işıq tutan və beynəlxalq standartlara cavab verən tədqiqatlar aparır, həm İslam, həm də digər dünya dinləri haqqında dərin biliyə yiyələnən, tərəfsiz və bütün konfessiyalara qarşı dözümlülüklə yanaşan din xadimlərini məzun edir, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəsini vermək missiyasını həyata keçirir.

Azərbaycan İlahiyyat İnstitutu dini xarici dairələrin nəzarətində olmayan, dinə məhdud çərçivədə deyil, geniş prizmadan yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan, xalqımızın tarixi ənənələrinə söykənən, yüksək dini-mənəvi mühitin qorunub saxlanması və inkişaf etdirilməsinə xidmət edən, dini fəaliyyətin təşkili sahəsində yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanmasını təmin edən mötəbər bir elm ocağı olmağı qarşısına məqsəd qoyub və fəaliyyət göstərdiyi 3 il ərzində bunu bacara bilib.

Sadalanan faktlar birmənalı şəkildə deməyə əsas verir ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi dövlət-din münasibətləri də sağlam təməllər üzərində qurulub. Fəxrlə deyə bilərik ki, son illər ölkə başçısının diqqət və qayğısı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti daha da təkmilləşdirilib. Arxada qoyduğumuz 20 il Dövlət Komitəsinin yaradılması ilə bağlı qərarın nə qədər doğru və zəruri olduğunu bir daha təsdiqlədi. Amma 20 illik tarix həm də bir həqiqəti göstərdi: dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərimizin təşviqi, dini maarifçilik işinin aparılması və dini radikalizmlə mübarizə sahəsində hələ çox işlər görülməlidir.

Dini-ideoloji təbliğat sahəsində maarifləndirmə işlərinin əhatə sferasının daha da artırılması, milli-mənəvi dəyərlərin təbliği və təşviqi istiqamətində digər aidiyyəti qurumlarla birgə əməkdaşlığın davam etdirilməsi, ölkədəki mövcud dini konfessiyalararası münasibətlərin, eləcə də multikultural və tolerant mühitin qorunub saxlanılması, eləcə də beynəlxalq əlaqələr sahəsində fəaliyyətin genişləndirilməsi və dini radikalizmlə mübarizə çərçivəsində təcrübə mübadiləsinin həyata keçirilməsi Dövlət Komitəsinin gələcəkdəki fəaliyyətinin prioritetləri sırasındadır. Həmçinin, Dövlət Komitəsinin gələcək hədəfləri sırasında tabeliyində fəaliyyət göstərən qurumlarla - Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutu ilə birgə ilahiyyatçı mütəxəssislərin, dini sahədə milli kadrların hazırlanması, habelə digər dövlətlərin oxşar qurumları ilə birgə əlaqələrin təkmilləşdirilməsi vəzifələri durur.

Əminliklə deyə bilərik ki, Dövlət Komitəsinin kollektivi Prezident İlham Əliyevin etimadını doğruldacaq, onun rəhbərliyi altında, diqqət və qayğısı nəticəsində üzərinə düşmüş bu şərəfli vəzifəni uğurla yerinə yetirəcəkdir.

# "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ" MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB

***İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasının 20 illiyi münasibəti ilə "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusunda videokonfrans keçirilib.***

Əvvəlcə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə çiçəklər düzülüb. Sonra Komitənin kollektivi Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib.

Videokonfransı giriş sözü ilə açan DQİDK sədri Mübariz Qurbanlı ölkəmizdə yüksək səviyyədə tənzimlənən dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğuna diqqət çəkərək məhz Ümummilli Liderin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət-din münasibətləri qurulduğunu, milli-mənəvi dəyərlərə münasibətin kökündən dəyişdiyini, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığının bərqərar olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərimizin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri də 21 iyun 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasıdır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət, Prezident İlham Əliyevin onu uğurla davam etdirməsi və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti Dövlət Komitəsinin qarşısına qoyulmuş məqsədlərə çatmasına əlverişli zəmin yaradır.

Dövlət Komitəsinin öhdəsinə düşən vəzifələr ötən 20 il ərzində yüksək səviyyədə həyata keçirilib. Ötən müddətdə din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi və dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər reallaşdırılıb. Maarifləndirmə işinin Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu bildirən M. Qurbanlı bu müddət ərzində Komitənin fəaliyyətini təkcə ölkə daxili ilə məhdudlaşdırmadığını, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də işlərini davam etdirdiyini vurğulayıb.

Mübariz Qurbanlı dini sahədə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını həm də DQİDK-ya göstərilən yüksək etimad kimi dəyərləndirib.

Çıxışında, həmçinin böyük qələbəmiz ilə nəticələnən 44 günlük Vətən müharibəsinə toxunan Komitə sədri vurğulayıb ki, Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin düşmən üzərindəki böyük zəfəri Azərbaycan tarixinin ən şərəfli səhifələrindəndir. Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq şəraitində çalışan Dövlət Komitəsi Vətən müharibəsi zamanı erməni təbliğatının ifşasına yönələn çoxsaylı tədbirlərdə yaxından iştirak edib.

Onu da əlavə edib ki, Komitənin bir neçə əməkdaşı Vətən müharibəsində iştirak edib, digər əməkdaşlar isə bu dövrdə üzərlərinə düşən vəzifəni yüksək məsuliyyətlə yerinə yetirməyə çalışıblar.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin Multikulturalizm və dini məsələlər sektorunun müdiri Müzəffər Talıblı dövlətin din siyasətinin həyata keçirilməsində Dövlət Komitəsinin səmərəli fəaliyyətindən, ötən müddət ərzində işgüzar kollektivin formalaşmasının, ixtisaslı kadr siyasətinin gücləndirilməsinin önəmi barədə danışıb. Ötən ilin noyabr ayında əvəzolunmaz lider Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfər tarixi yazaraq ərazi bütövlüyümüzü təmin edən Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən M.Talıblı daxili və xarici siyasətimizdəki nailiyyətlərə diqqət çəkib. Vurğulayıb ki, bu tarixi proseslərdə milli-mənəvi dəyərlərimizin, multikultural ənənələrimizin də mühüm rolu olub. O, ideoloyi sahədə Dövlət Komitəsinin kollektivinin yüksək peşəkarlıqla çalışaraq ölkəmizdə formalaşan nümunəvi dövlət-din münasibətlərinin daha da inkişafında səy və bacarıqlarını əsirgəməyəcəyinə əminliyini ifadə edib.




Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin birinci müavini, müfti Salman Musayev əvvəlcə QMİ sədri Allahşükür Paşazadənin Dövlət Komitəsinə ünvanladığı təbrik məktubunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun icra olunması, dövrün tələblərinə uyğun olaraq əlavə və düzəlişlər edilməsi üçün təkliflər verilməsi, dövlətin din siyasətinin həyata keçirilməsi, din xadimləri ilə dövlət arasında əlaqələndirici rol oynaması baxımından Komitənin fəaliyyəti təqdirəlayiqdir. Fəaliyyət göstərdiyi ötən dövr ərzində DQİDK xaricdən Azərbaycana yönələn təhdidlərin, zərərli dini fikirlərin təbliğatının qarşısının alınmasında, dini maarifləndirmə və təbliğat işləri apararaq radikal dini cərəyanların təsirlərinin neytrallaşdırılmasında mühüm rol oynayıb. Dövlət-din münasibətlərinin tənzimlənməsində mühüm nailiyyətlər əldə etmiş Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təcrübəsi digər ölkələr tərəfindən də öyrənilir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin din sahəsində atdığı ən böyük addımlardan biri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədəki dini durumda gərginlik müşahidə olunurdu, istər İslam, istər qeyri-islam radikal dini qrupların fəaliyyəti ölkədəki dini duruma mənfi təsir göstərirdi. Məhz bu səbəblərdən din sahəsinə yeni yanaşmalar tələb olunurdu. MDB məkanında ilk dəfə Azərbaycanda Ulu Öndərin Fərmanı ilə belə bir qurum yaradıldı və dini fəaliyyət sahəsində bir sıra islahatlar həyata keçirildi. Qısa müddət ərzində dini durumda sabitlik müşahidə edildi. Din sahəsində aparılan maarifləndirmə işləri, ölkə miqyasında keçirilən çoxsaylı tədbirlər öz bəhrəsini verir. Bu gün Azərbaycanda Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərir. Bütün bunların nəticəsində dövlətin din siyasəti uğurla həyata keçirilir, Qafqaz Müsəlmanları İdarəsi və digər dini qurumlarla birgə faydalı əməkdaşlıq əsasında qarşılıqlı münasibətlər çox yüksək səviyyədə özünü göstərir. Biz Vətən müharibəsi dövründə də bunun şahidi olduq. Ermənistan müharibənin dini müstəvidə aparıldığını iddia etməyə çalışsa da, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların dövlətimizlə həmrəylik nümayiş etdirməsi, bir yumruq kimi birləşməsi ermənilərin bütün cəhdlərini boşa çıxardı.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə kollektivi təbrik edərək, Komitənin genişspektrli fəaliyyətinə uğurlar arzulayıb. Rəhbərlik etdiyi qurumla Dövlət Komitəsinin birgə əməkdaşlığına toxunan Rəvan Həsənov ölkə daxili və xaricində iki qurum tərəfindən həyata keçirilən layihələrin önəmindən danışıb. Tolerant, multikultural dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində bundan sonra da qarşılıqlı əlaqələrin uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə dövlətin din sahəsində həyata keçirdiyi müdrik siyasətlə Komitə ilə əməkdaşlıq dövründə daha yaxından tanış olmaq imkanı əldə etdiyini vurğulayıb. Keçirilən görüşlər zamanı müxtəlif dini konfessiyalar arasındakı nümunəvi əməkdaşlıq və dostluq münasibətlərinin, onların fəaliyyəti üçün yaradılan şəraitin şahidi olduğunu qeyd edən natiq Dövlət Komitəsinin əməkdaşlarına sözügedən istiqamətdəki fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov çıxış edərək, 70 illik sovet hakimiyyəti dövründən sonra Ulu Öndər Heydər Əliyevin 2001-ci ildə imzaladığı Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının ölkədə dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin, tarixən mövcud multikultural və tolerant mühitin inkişafı baxımından mühüm qərar olduğunu bildirib. O qeyd edib ki, Komitə yaradıldığı gündən bölgələrdə radikalizmə, fanatizmə qarşı, eyni zamanda multikultural və tolerant dəyərlərin aşılanması yönündə müxtəlif tədbirlər həyata keçirir. Rektor vurğulayıb ki, Komitənin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, multikulturalizm və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə göstərdiyi qayğının bariz nümunəsidir.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi protoiyerey Elnur Əfəndiyev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumunun təmsilçisi Yozef Marek, "Azərbaycan Bibliya Cəmiyyəti"nin xristian dini icmasının sədri Rasim Xəlilov Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, 44 günlük Vətən Müharibəsinin qalib sərkərdəsi Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın dini sahəyə göstərdiyi diqqət və qayğı barədə danışıblar. Eyni zamanda ötən dövr örzində Dövlət Komitəsinin dini konfessiyalara qarşılıqlı əməkdaşlığın inkişafı, dini qurumların fəaliyyətinin dəstəklənməsi istiqamətindəki uğurlu fəaliyyətinə, habelə dini icmaları narahat edən məsələlərin dərindən öyrənilməsi, dini durumdakı neqativ halların aradan qaldırılması məqsədilə həyata keçirilən kompleks tədbirlərə diqqət çəkiblər.

Çıxışlardan sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20 illiyi münasibətilə yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında təşkil edilən "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusundakı yazı müsabiqəsinin qalibləri elan olunub.

Konfransın sonunda videokonfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

# DÖVLƏT KOMİTƏSİNİN 20 İLLİK FƏALİYYƏTİNİƏKS ETDİRƏN FOTOALBOM NƏŞR EDİLİB




Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 20 illik fəaliyyətini əks etdirən fotoalbom nəşr edilib.

Nəşrin “Dövlət və din”, “Dini qurumların fəaliyyəti və onlara dövlət qayğısı”, “Dini icmaların dövlət qeydiyyatı”, “Tolerant və multikultural ənənələrin təbliği”, “Dini maarifləndirmə işi və milli-mənəvi dəyərlərin təbliği”, “Dini radikalizmlə mübarizə”, “Vətəndaş qəbulu”, “Beynəlxalq əlaqələr”, “İctimai əlaqələr və sosial fəaliyyət”, “İctimai Şura”, “Könüllü fəaliyyət”, “Mənəvi Dəyərlərin Təbliği Fondu”, “İlahiyyat İnstitutu” və s. bölmələrində ötən 20 il ərzində Dövlət Komitəsinin milli-mənəvi dəyərlərin təbliği, radikalizmlə mübarizə, respublikada dini durumun öyrənilməsi, dini qurumlarla əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində gördüyü işlər barədə fotoşəkillər əksini tapıb.

Fotoalbom dövlətimizin din siyasətinin, dinə diqqət və qayğısının, Dövlət Komitəsinin 20 illik fəaliyyətinin kiçik mənzərəsidir. İnanırıq ki, geridə qoyduğumuz 20 il ərzində Dövlət Komitəsinin gördüyü işlərə qiymət vermək üçün önəmli vəsait ola biləcək bu nəşr həm ümumi məzmunu, həm də bədii estetik görünüşü ilə geniş oxucu kütləsinin zövqünü oxşayacaq.

# “XALQIMIZIN MİLLİ BİRLİYİNİN MÖHKƏMLƏNMƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU”

İyunun 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu” mövzusuna həsr olunmuş videokonfrans keçirilib.

Tədbirə Ucar, Göyçay, Kürdəmir, Zərdab, Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarında fəaliyyət göstərən dini icma üzvləri, din xadimləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgələr üzrə səlahiyyətli nümayəndələri, habelə qeyri-müsəlman dini icmaların rəhbərləri qatılıblar.

Videokonfransı giriş sözü ilə açan Komitə sədrinin birinci müavini Səyyad Salahlı milli-mənəvi dəyərlərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişib, bu zəngin xəzinənin qorunmasına dövlət səviyyəsində böyük qayğı və diqqət göstərilib, qapıları uzun müddət bağlı qalan müqəddəs ibadət ocaqları fəaliyyətini bərpa edib, onların təmiri və inşası vüsət alıb. S.Salahlı vurğulayıb ki, Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideyası milli həmrəyliyi, dinlərarası harmoniyanı, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Multikultural dəyərlərin dünya miqyasında hamisi kimi nüfuz qazanan Prezident İlham Əliyevin mənəvi dəyərlərimizə verdiyi önəmdən də danışan S.Salahlı Azərbaycanda müxtəlif dinlərə etiqad edən insanların həyata keçirilən uğurlu milli siyasət nəticəsində mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyini qeyd edib. Sədrin birinci müavini bu uzaqgörən siyasətin nəticəsinin möhtəşəm Zəfərlə yekunlaşan Vətən müharibəsində də özünü göstərdiyini qeyd edib.



DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev çıxışında ayrı-ayrı etnosların və dini konfessiyaların həmrəylik şəraitində yaşaması, onların bir millət, xalq kimi formalaşmasında milli-mənəvi dəyərlərimizin roluna toxunub. Eyni zamanda milli-mənəvi dəyərlərimizin inkişaf yoluna nəzər salan S.Mirzəyev bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyəti barədə danışıb. Şöbə müdiri bildirib ki, Vətən müharibəsində möhtəşəm qələbə qazanmağımızda bir sıra amillər xüsusi rol oynayıb. Bu amillərin başında dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti, möhkəm və qətiyyətli iradəsi, eyni zamanda xalqımızın mənsub olduğu milli-mənəvi dəyərlər gəlir.

QMİ-nin Şamaxı bölgəsi üzrə qazısı Mərəhmət Mustafayev mövzunun aktuallığına toxunaraq vurğulayıb ki, 44 gün davam edən Vətən müharibəsində dini mənsubiyyətindən, məzhəb fərqindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının Ali Baş Komandanımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək dəmir yumruğa çevrilməsi milli birliyimizin ən gözəl nümunəsidir. Bölgə qazısı Amerika Yəhudi İcması üzvlərinin 1999-cu ildə Şamaxıya səfərləri zamanı məzhəb fərqi qoyulmadan qədim Cümə məscidində əhalinin birlikdə namaz qılmasına təəccüb nümayiş etdirdiklərini, multikultural, tolerant dəyərlərimizin dünya ölkələri üçün əvəzsiz nümunə olduğunu xatırladıb.

Bakı şəhəri “Alov” xristian dini icmasının sədri İdris Məmmədov və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının sədri Robert Mobili təmsil etdikləri dini qurumların Vətən müharibəsi dövründəki fəaliyyəti, yardım aksiyaları haqqında məlumat veriblər. Ermənistanın münaqişəni dini motivə çəkmək cəhdləri, Alban-udi irsinin saxtalaşdırılması kimi faktlara diqqət çəkən icma sədrləri bu uydurmaların qarşısının alınması üçün beynəlxalq təşkilatlara müraciətlər ünvanlandığını, Azərbaycan həqiqətlərini əks etdirən videoçarxların çəkildiyini bildiriblər.

Qafqaz Müsəlmanları İdarəsinin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəsi Füzuli Cəfərov və Ucar şəhər “Cami” məscidi dini icmasının sədri Ceyhun Əliyev çıxışlarında bildiriblər ki, milli-mənəvi dəyərlərimiz Vətənimiz və milli dövlətçiliyimiz naminə birliyimizi möhkəmləndirir.

Videokonfrans müzakirələrlə davam etdirilib.

# “XXI əsrdən baxış: din və qadın” mövzusunda videokonfrans keçirilib

İyunun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “XXI əsrdən baxış: din və qadın” mövzusunda videokonfrans keçirilib.

Videokonfransda təşkilatçı qurumların nümayəndələri, rayonun fəal qadınları, təhsil işçiləri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkaran Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Könül Manafova erkən nikah probleminin bütün zamanlarda cəmiyyətimizi düşündürən aktual problem olduğuna diqqəti çəkib. O bildirib ki, vaxtilə Lənkəran bölgəsində bu sahədəki statistika narahatlıq doğursa da, dövlət tərəfindən görülən tədbirlər və cəmiyyətin ictimai qınağı vəziyyətin müsbətə doğru dəyişməsinə, erkən nikah faktlarının tədricən azalmasına səbəb olub.

Komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva çıxışı zamanı erkən nikahların törətdiyi fəsadlardan qaynaqlanan problemlərin sayının artmasına diqqət çəkib. Bu kimi halların sayının artmasının arzuolunmaz hal olduğunu qeyd edən şöbə müdiri bildirib ki, problemin əsas mənbəyindən birini də qızların təhsildən yayındırılması təşkil edir. Vurğulayıb ki, orta məktəb şagirdləri arasında oxuyub-yazmağı bacarmayanların aşkarlanması acınacaqlı haldır. Qızların yuxarı siniflərdən məktəbdən çıxarılması və erkən nikaha cəlb edilməsi onları nəinki təhsil almaq, həm də cəmiyyətə inteqrasiya etmək hüququndan məhrum edir və cəmiyyətdən təcrid vəziyyətinə düşməsinə səbəb olur. Belə qızlar zorla ərə verilməklə həm də öz sosial hüquqlarından imtina etmək məcburiyyətində qalırlar.

Lənkəran Şəhər İcra Hakimiyyətinin Təhsil şöbəsinin müdiri Ülviyyə Əliyeva diqqətə çatdırıb ki, mövcud vəziyyətin aradan qaldırılmasında maarifləndirmə, bölgələrdə, ictimaiyyət arasında güclü təbliğat xüsusi rol oynayır. Sözügedən problemlə mübarizədə təmsil etdiyi rayonun təcrübəsini paylaşan Ü.Əliyeva qeyd edib ki, şəhər İcra hakimiyyətinin dəstəyi ilə həyata keçirilən tədbirlərin, atılan addımların nəticəsində Lənkəranda azyaşlı qızların kabusu olan erkən nikahların sayı minimuma enib. Bir qız övladının təhsilinin bir ailənin xilası olduğunu deyən şöbə müdiri bu sahədə müəllimlərlə yanaşı, valideynlərin də məsuliyyət daşıdığını vurğulayıb.

DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə qeyd edib ki, Şərqdə ilk dəfə kişilərlə bərabər səsvermə hüququ qazanan, ilk operanı yazan, ilk dəfə pilot peşəsinə yiyələnən və daha neçə-neçə ilklərə öz imzasını atmış Azərbaycan qadını heç vaxt aciz ola bilməz. Cəmiyyətin ziyalı qadınları əl-ələ verib zorakılığa məruz qalan, hüquqları tapdalanan həmcinslərinə kömək etməli, onların müasir dünyanın tələblərinə uyğun təhsilə sahib olmaları üçün dəstək göstərməlidirlər.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova “İslamın qadına verdiyi dəyər” mövzusunda təqdimatla çıxış edib, dinimizin qadına qazandırdığı hüquq və azadlıqlar, qadınların haqlarının qorunması, qadının ailədə rolu kimi mövzulara toxunub. Azərbaycanda qadının cəmiyyətdə fəallığının artırılması üçün atılan mühüm addımlara diqqət çəkərək bildirib ki, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın ölkəmizin ictimai və siyasi həyatındakı fəal iştirakı Azərbaycan qadınının tarixi missiyasını bu gün də uğurla davam etdirdiyini göstərmək üçün kifayət edir.

DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə “Maarifçilik yolunda Azərbaycan qadınları” mövzusunda təqdimatla çıxış edərək xalqımızın tarixində dönüş nöqtəsi yaradan qadınlardan söhbət açıb. Təqdimatında öncül Azərbaycan qadınlarından nümunələr gətirən natiq qadınların təhsilli olmasının vacibliyini vurğulayıb.

Videokonfrans müzakirələrlə yekunlaşıb.






PRESIDENT
ODIHR DIRECTOR
OSCE























MƏSCİDİN TƏMƏLİ
AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV
TƏRƏFİNDƏN 12 MAY 2021-Cİ İL
TARİXİNDƏ QOYULMUŞDUR









PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ:
MƏDƏNİYYƏTLƏRARASI VƏ DİNLƏRARASI HARMONİYA
MÜBARİZ QURBANLI




92



DÜNƏN, BU GÜN, SABAH
KONFRANS




BEYNƏLXALQ KONFRANS
ZORAKI EKSTREMİZM İLƏ MÜBARİZƏ:
ƏFDAŞLIQLA DAYANIQLIĞIN GÜCLƏNDİRİLMƏSİ
Emil Balavac
Aida Skenderagic



DİN VƏ İDEOLOJİ
TƏHLÜKƏSİZLİK
REGİONAL KONFRANS





of the Council of Europe
International Symposium








SƏNƏDLİ FİLMİNİN








# SƏYYAD SALAHLININ YENİ KİTABI NƏŞR EDİLİB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlının (Aran) "Dini tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir" adlı kitabı nəşr olunub. DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə çap edilən kitabda müəllifin son illərdə dövri mətbuatda işıq üzü görmüş məqalələri, müsahibə və çıxışları yer alıb.

Kitabda qeyd olunur ki, heç bir dövlət qlobal proseslərdən kənarda dayana bilməz. Bu baxımdan müxtəlif din və xalqların nümayəndələrinin toplaşdığı Azərbaycan özünəməxsus dialoq modelini formalaşdırmağa nail olub. Dinlərarası dialoq şəraitində, bütün xalqların bərabər və azad şəkildə yaşayışının təmin olunduğu bir şəraitdə Azərbaycan modelinin dünyəvi uğuru və perspektivləri danılmazdır. Artıq ölkəmiz bir çox dünya dövlətləri üçün nümunə sayılacaq tolerantlıq modelini formalaşdırıb və nümayiş etdirib.

Dövrün reallıqları sübut edir ki, istənilən cəmiyyətdə sabitlik və təhlükəsizliyin mövcudluğunu şərtləndirən əsas amillərdən biri dini dözümlülük, müxtəlif dinə sitayiş edən insanların tolerantlıq şəraitində yaşaya bilməsi ilə birbaşa bağlıdır. Sözügedən amil həm də davamlı inkişafın möhkəm əsasını yaradan ən vacib faktorlardan biridir. Bunun üçün dünyanın mövcud siyasi və dini xəritəsinə nəzər yetirmək kifayətdir. Müasirlik və mənəvi dəyərlərə sədaqət yolunda uğurla irəliləyən ölkəmizi də xarakterizə edən əsas xüsusiyyətlərdən biri yüksək dini tolerantlığın artıq mədəniyyətimizin ayrılmaz tərkib hissəsinə çevrilməsidir. Məhz bunun nəticəsidir ki, Azərbaycan dünya miqyasında təkcə dinamik sosial-iqtisadi inkişafa malik ölkə olaraq yox, həm də dini tolerantlıq baxımından xüsusi maraq və əhəmiyyət kəsb edən dövlət kimi qəbul olunur.

Şəhidlik, ata-anaya hörmət, xeyriyyəçilik, qadın hüquqları və s. bu kimi milli-mənəvi dəyərlərimizin ən vacib elementlərindən də bəhs olunan kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ İLƏ MDTF-NİN İCRAÇI DİREKTORUNUN GÖRÜŞÜ KEÇİRİLİB



İyunun 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktoru Mehman İsmayılovun görüşü baş tutub.

İcraçı direktor mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən Fondun yaranması, fəaliyyət istiqamətləri, həyata keçirilən layihələri və hesabatlılığı haqqında geniş məlumat verib, Şura üzvlərinin təkliflərini dinləyib.

Şura üzvləri, öz növbəsində, MDTF-nin ökədə mövcud dini konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı sahəsində həyata keçirdiyi tədbirləri, o cümlədən şəhid ailələrinin sosial müdafiəsi istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini vurğulayaraq Fonda gələcək fəaliyyətində uğurlar arzulayıblar.

# "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ" MÖVZUSUNDAKI YAZI MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜƏYYƏNLƏŞİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusunda yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında elan edilən yazı müsabiqəsinin qalibləri müəyyənləşib.

Müsabiqənin nəticəsinə görə, Seymur Əliyev (Moderator.az) I, Aytən Abdulova (Azərbaycan Televiziyası) və Sevinc Qarayeva (525-ci qəzet) II, Səid Qərib (Report İA), Günay Elşadqızı (APA İA), Pərviz Sadayoğlu ("Yeni Azərbaycan" qəzeti) III yerlərə, Təbriz Vəfalı (Azim.az), Elnurə Abuşova (Azadmedia.az), Lalə Mehralı (TvPress internet qəzeti), Ülvi Səfərov (Oxu.az), Orxan Hüseynov (Baku.ws) və Töraxanım Zeynallı (Azvision.az) həvəsləndirici mükafatlara layiq görülüblər.

# "MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ AZƏRBAYCANÇILIQ" ADLI KİTAB NƏŞR OLUNUB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ümumi şöbəsinin müdiri Amil Cavadovun "Milli-mənəvi dəyərlər və Azərbaycançılıq" adlı kitabı nəşr olunub.

Kitabda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycançılıq ideyasının yaranma tarixi, mahiyyəti, dövlətçiliyimizin inkişafında yeri və rolu müxtəlif aspektlərdən araşdırılaraq işıqlandırılıb.

Müəllif nəşrdə Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunmasında, milli birliyin möhkəmlənməsindəki rolundan, dövlətin din siyasətinin formalaşmasındakı xidmətlərindən, uğurlu dövlət-din modelinin yaradılması istiqamətində yürütdüyü mükəmməl siyasətdən bəhs edib. Eyni zamanda, kitabda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə prioritet sahələrdən hesab edilən multikultural, tolerant və birgəyaşayış ənənələrinin təşviqi, habelə ölkə başçısının ictimai-siyasi sabitliyin qorunub saxlanılmasındakı rolu barədə məlumatlar yer alır.

Qeyd edək ki, kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə çap edilib.

# İLAHİYYATÇI ALİMLƏRİMİZİN KİTABI TÜRKİYƏDƏ NƏŞR OLUNUB




Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov və Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarovun həmmüəllif olduqları "İslam düşüncesinde kötülük sorunu ve teodise - I" ("İslam düşüncəsində şər problemi və teodiseya-I") kitabı Türkiyədə nəşr olunub.

Türkiyəli alimlər – dr. Hakan Hemşinli və dr. Yunus Kaplanın elmi redaktoru olduqları nümunədə cəmiyyətdəki şər problemi metafizik, ontoloji, epistemioloji və teoloji aspektlərdən geniş müzakirə obyektinə çevirilib. Tədqiqatda müəlliflərin əsas məqsədi şər problemini və ilahi ədalət məsələsini fəlsəfi və teoloji aspektlərdən İslam düşüncəsində necə araşdırıldığını ortaya çıxarmaqdır. Həmçinin müsəlman ilahiyyatçıların və filosofların bu məzmundakı fikir və müddəalarını analitik şəkildə izah etmək və öyrənməkdir.

Əsərdə müasir dövrün filosof və teoloqlarının şər problemi və ilahi ədalətlə bağlı elmi-fəlsəfi yanaşmaları da öz əksini tapıb.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzetinin 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.

## Abbasov Ağaqardaş İlham oğlu



Şəhid Abbasov Ağaqardaş İlham oğlu 1992-ci il sentyabrın 28-də Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub. Ağaqardaş orta məktəbi bitirdikdən sonra şəhidimiz Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasına qəbul olunub. İstər məktəb, istərsə də tələbəlik illərində nümunəvi davranışı ilə hər kəsə örnək olan Ağaqardaş hərbi xidmət dövründə də yüksək etikası ilə seçilib. Qəhrəmanımız müddətli hərbi xidmətinin ardından hərbçi kimi xidmətini davam etdirib. Baş leytenant Abbasov Vətən müharibəsi ərəfəsində Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin "Həmlə" taborunda xidmət edib. O, müharibənin ilk günü cəbhəyə yollanaraq, düşmənin birinci eşelonunun yarılmasında xüsusi fədakarlığı ilə seçilib. Ağaqardaş Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı və Aşağı Seyid Əhmədli istiqamətində gedən ağır döyüşlər zamanı ayağından qəlpə yarası alan baş leytenant döyüş meydanından geri çəkilməyib. Özü yaralı olduğu halda digər yaralı əsgər və zabitləri döyüş meydanından çıxarmaq üçün də çalışıb. Ağaqardaşın döyüş yoldaşı Vətən müharibəsi qazisi Səbuhi Məmmədovun sözlərinə görə, onlar hər ikisi yaralı olub. Onları xilas etməyə gələn gizir Abışov Babəklə birlikdə 28 sentyabr tarixində - doğum günündə snayper gülləsinə tuş gələrək, şəhid olublar.

Şəhidin nəşi 38 gün sonra tapılıb və uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Ağaqardaş ailəli idi. 5 il övlad həsrəti çəkən qəhrəmanımızın şəhadətindən sonra 2021-ci ilin fevralında qızı dünyaya gəlib.

Cəsurluğu və qəhrəmanlığı ilə adını tariximizə əbədi yazan baş leytenant Abbasov Ağaqardaş İlham oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov Elcan Əfsəddin oğlu



Ömrü qısa, amma şərəfli məqamlarla zəngin olan şəhidlərimizdən biri də Abbasov Elcan Əfsəddin oğludur. Elcan 23 sentyabr 2000-ci ildə Mingəçevirdə dünyaya gəlib. O, orta məktəbi Mingəçevir şəhərində bitirib. Uşaqlıqdan musiqiyə həvəsi olan qəhrəmanımız həm də istedadlı qarmon ifaçısı idi. Elcan 2018-ci ilin oktyabrında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Mingəçevir şəhər şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayan Elcan uşaq yaşlarından güləşlə məşğul idi. O, xidməti ərzində komandanlığın etimadını doğruldub. Elə buna görə də həqiqi hərbi xidmətini başa vurduqdan sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə cəlb ediləərək xidmətini davam etdirib.

Doğum günündən dörd gün sonra qatıldığı Vətən Müharibəsindəki şücaəti ilə ürəkləri fəth edən qəhrəmanımızın anası Ulduz Nəsibovanın dediyinə görə, Elcan Füzulidən Şuşaya kimi şərəfli döyüş yolu keçib. Hadrut, Xocavənd, Şuşa və digər istiqamətlərdə gedən ağır döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərib: "İki övladım var, hər ikisi hərbçidir. Onları atasız böyütmüşəm. Elcan Abbasov şəhid olsa da, başım həmişə ucadır. Zəhmətkeş uşaq idi. Böyük arzuları vardı, yunan-Roma güləşçisi idi. Çoxlu medalı, təltifi var idi. Tez-tez danışırdıq. Deyirdi ki, narahat olma, mən çox yaxşıyam. Axırıncı dəfə oktyabrın 28-də danışmışdım".

Vətən müharibəsinin iştirakçısı olmuş Elcanın döyüş yolu sentyabrın 20-də Kəlbəcər istiqmətindən başlayıb. O, Murov yüksəkliyinin işğaldan azad edilməsində xüsusi fədakarlığı ilə seçilib. Daha sonra təmsil olunduğu qrup döyüşlərə cəbhənin cənub istiqamətindən davam edib. Elcan Füzulidən Şuşaya kimi uzun döyüş yolu keçir, hətta Şuşanın azadlığını və Qələbə gününü də görür. Lakin təəssüf ki, Şuşa cəbhəsində aldığı qəlpə yarasından noyabrın 11-də şəhidlik məqamına ucalır. Şəhidimiz Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilib.

Elcan subay idi. Onun yeganə qardaşı Fərid də hərbçidir və hazırda Vətənə xidmətini davam etdirir.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abbasov Elcan Əfsəddin oğlu ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

## Abbasov Elşən Qurban oğlu

Şəhid Abbasov Elşən Qurban oğlu 1992-ci il dekabrın 30-da Beyləqan rayonunun Birinci Şahsevən kəndində sadə, zəhmətkeş kəndli ailəsində dünyaya gəlib. Elşən 1999-cu ildə Gəray Əsədov adına Birinci Şahsevən kənd 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. Təhsil aldığı məktəbin böyük bir hissəsində Birinci Qarabağ müharibəsi zamanı öz yurd-yuvalarından didərgin salınmış məcburi köçkünlər məskunlaşmışdılar. Həmin məktəbdə təhsil alan bütün şagirdlər kimi o da məcburi köçkünlərin çətin həyat şəraitini görür və bunun səbəbkarlarına dərin nifrət hissi duyurdu. Qəhrəmanımızın atası Qurban kişi bənna olmağına baxmayaraq, tariximizi çox gözəl bilir və övladlarına da milli matəm günlərimizi, millətimizin yaşadığı faciələri ətraflı izah edirdi. Evin böyük oğlu olan Elşən 2008-ci ildə 9 illik icbari təhsilini başa vurduqdan sonra atasına işlərində kömək etməyə başlayır.

Əsl vətənpərvər Azərbaycan gənci kimi formalaşan Elşən 2012-ci ildə Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xidmətə Bakı şəhərində yerləşən "N" saylı hərbi hissədə başlayan qəhrəmanımız daha sonra xidmətini Tovuz və Ağstafa rayonlarında davam etdirib. Hələ uşaq yaşlarından xislətinə bələd olduğu düşmənlə üzbəüz postlarda dayanan şəhidimiz onların törədə biləcəyi təxribatlara qarşı özünü hazırlayır, fiziki və hərbi hazırlığını inkişaf etdirir, təlimlərdə verilən hədəfləri dəqiqliklə vurmağı bacarır, hərbi nizamnamələrin tələblərini yerinə yetirirdi.

Hərbi xidmətini başa vurduqdan sonra valideynlərinin yanına qayıdan Elşən çox keçmədən hərb sənətinə olan maraq və sevgisini atasına bildirir. Bu istəyi gec-tez eşidəcəyini bilən Qurban kişinin xeyir-duasını aldıqdan sonra sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb.



Hərbçi kimi fəaliyyətə başladığı ilk dövrlərdən nizam-intizamı və öz peşəsinə bağlılığı ilə seçilən Elşən təlimlərdə də üzərinə düşən işin öhdəsindən yüksək səviyyədə gəlməyi bacarıb. 2016-cı ildə Aprel döyüşlərində iştirak edən şəhidimiz xüsusi xidmətlərinə görə komandirləri tərəfindən fəxri fərmanlarla təltif olunub. O, xidmətində fərqləndiyinə görə 2016-cı ildə yaradılan "Həmlə" taboruna təyinat alıb. "BTR-82" də tuşlayıcı-operator vəzifəsində fəaliyyətini davam etdirən qəhrəmanımız xidməti ərzində daim ağır döyüş əməliyyatlarının iştirakçısı olub və peşəkar hərbçi kimi formalaşıb.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan ilk gündən "Həmlə" taborunun tərkibində qatıldığı döyüşlər Elşənin Vətəninə sevgisini, düşmənə nifrətini göstərmək öyrəndiklərini tətbiq etmək üçün əsl ər meydanı hesab olunurdu. Döyüş yoldaşlarının bildirdiyinə görə, o, qorxmadan düşmənin üstünə irəliləyir, verilən hədəfləri məhv etmədən geri dönmürdü. Qəhrəmanımız iki gün ərzində bir neçə kənd və postların azad olunmasında böyük şücaət göstərib. Qəhrəmanımız sentyabrın 28-də Füzuli rayonu istiqamətində Qorqan kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, sentyabrın 29-da Birinci Şahsevən kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz ailəli idi, iki qız övladı var.

İgidliyi və qəhrəmanlığı ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov Elşən Qurban oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyun ayı ərzində də davam etdirmişdir. Pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**2 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**3 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon İcra Hakimiyyəti (RİH), Rayon Gənclər və İdman İdarəsi (RGİİ) və Saatlı Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;

**4 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Qusar Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti"; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Saatlı, Sabirabad, İmişli, Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab şəhər 1 saylı məktəb liseyinin birgə təşkilatçılığı ilə "Erkən nikah, dini radikalizm və zərərli vərdişlər" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay şəhəri Mərkəz məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Dini durum və pandemiyaya qarşı mübarizə" mövzusunda;

**7 iyun** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab və Tovuz rayon Heydər Əliyev Mərkəzlərinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf" mövzusunda;

**8 iyun** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizəmövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH, RGİİ və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində;

**9 iyun** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Yardımlı RGİİ-nin birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət hüquqi-mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində;

**10 iyun** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in birgə təşkilatçılığı ilə Zərdab rayonu Qaravəlli kənd tam orta məktəbində "Dini radikalizm, narkomaniya, erkən nikah və onların fəsadları" mövzusunda;

**11 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional mərkəzi, QMİ-nin Quba və Şabran bölgələri üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət, hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki şəhər GİI və Şəki ŞİH-in birgə təşkilatçılığı ilə "İnsan hüquqları" mövzusunda;

**14 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyevlə başlanan Qurtuluş tarixi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Saatlı Gənclər Evi sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə 15-iyun Milli Qurtuluş günü ilə bağlı; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH, Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının birgə təşkilatçılığı ilə "Milli Qurtuluş Günü - qüdrətli Azərbaycanın təməlidir" mövzusunda;

**16 iyun** – DQDİK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin (UADM) birgə təşkilatçılığı ilə "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi-psixoloji aspektləri" mövzusunda;

**17 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "Narkomaniyaya yox deyək" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;

**18 iyun** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RGİİ və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda "İnsan Hüquqları Aylığı" çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüquqi mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RGİİ, rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**25 iyun** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH, Biləsuvar Rayon Polis Şöbəsi və RGİİ-nin birgə təşkilatçılığı ilə "Narkomaniya və onun yaratdığı fəsadlar" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Vətənpərvərlik: milli və mənəvi dəyər kimi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Saatlı Gənclər Evi sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı; həmçinin DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Quba şəhəri "Hacı Cəfər" məscidində Vətən müharibəsində döyüşmüş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə medallarla təltif olunmuş bir qrup qazi ilə görüş baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən videokonfranslar zamanı milli qurtuluşdan başlanan yolda əldə edilən uğurlar haqqında ətraflı fikir mübadiləsi aparılıb. Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin tarixində qoyduğu silinməz izlərdən geniş söhbət açan natiqlər bildiriblər ki, Azərbaycan adlı müstəqil dövlət bizə və bütün gələcək nəsillərə Ulu Öndərin ən böyük tarixi əmanətidir və biz bu əmanəti hər zaman qorumalıyıq. Azərbaycan cəmiyyəti Heydər Əliyevin zəngin dövlətçilik irsini ölkədə qüdrətli dövlətin, güclü xalqın və möhtəşəm inkişafın təmin edilməsinə yönələn təkmil konsepsiya kimi qəbul edir. Bu siyasəti yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Prezident İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməli işi ilə doğruldaraq daim insanların sevgisini və etimadını qazanıb.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Videokonfranslarda insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Çıxışlar zamanı insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar haqqında məlumat verilərək, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Həmçinin vurğulanıb ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Onlayn tədbirlərdə, həmçinin cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılıb. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan videokonfranslar qarşılıqlı diskussiya şəklində baş tutub.

Çıxışlar zamanı bölgələrdəki mövcud dini durum ilə bağlı müzakirələr aparılıb. Koronavirus pandemiyasına qarşı mübarizədə dini icmalar və din xadimlərinin daha aktiv fəaliyyət göstərməsinin əhəmiyyəti vurğulanıb. Eləcə də iyunun 10-dan etibarən məscidlərin açılması, Operativ Qərargahın tərtib etdiyi qaydalarla məscidlərin fəaliyyət göstərməsi ilə bağlı mövzular ətrafında fikirlər səsləndirilib.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

## BMT-nin büdcəsi qəbul olunmasa, sülhməramlı əməliyyatlar dayandırılacaq

BMT-yə üzv ölkələr iyulun 1-də yeni sülhməramlı büdcəni qəbul etməsə, dünya üzrə bütün sülhməramlı missiyaların resursları nəzərəçarpacaq dərəcədə məhdudlaşacaq.

"Reuters" agentliyi xəbər verir ki, bunu BMT-nin İdarəetmə və Siyasət Departamentinin rəhbəri Ketrin Polard bildirib. Onun sözlərinə görə, dünyadakı 12 sülhməramlı missiyanın hamısına tövsiyə olunub ki, yeni büdcə vaxtında qəbul edilməyəcəyi halda yaranacaq fövqəladə vəziyyətə uyğun fəaliyyət göstərsinlər.

"Eyni zamanda, ümid edirik ki, üzv ölkələr danışıqları uğurla başa çatdıracaq", - deyə Ketrin Polard bildirib.

Həmçinin qeyd olunur ki, iyulun 1-də büdcə təsdiqlənməsə, BMT-nin Baş katibi qurumun əmlakını və əməkdaşlarını qorumaq üçün təşkilatın vəsaitlərindən istifadə etməli olacaq. "Bəzi diplomatlar razılaşmanın gecikməsinin səbəbini Çin və Qərb ölkələrini qarşı-qarşıya qoyan maddi-texniki problemlərdə və gərgin danışıqlarda görür", – deyə agentlik vurğulayır.

Qeyd edək ki, bu il BMT sülhməramlı əməliyyatlar üçün 6 milyard dollar istəyib. Ötən ilin nəticələrinə görə, sülhməramlı xərclərin 28 faizini öz üzərinə götürən ABŞ və 15,2 faizini qarşılayan Çin ən böyük donor ölkələr olub. Yaponiya sülhməramlı missiyalara verdiyi töhfəyə görə üçüncü yerdədir - 8,5 faiz.

## RUSİYA VƏ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ANTALYADA GÖRÜŞƏCƏKLƏR

Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə danışıqlar aparmaq üçün iyunun 30-da Antalyaya səfər edəcək.

Rusiya XİN-in mətbuat xidmətinin yaydığı xəbərə görə, görüş zamanı nazirlər ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini, həmçinin regional və beynəlxalq gündəlikdə duran aktual məsələləri müzakirə edəcəklər.

Məlumatda bildirilir ki, dünyada mürəkkəb sanitar-epidemioloji vəziyyətə baxmayaraq, Rusiya-Türkiyə siyasi dialoqu yüksək intensivliyi ilə xarakterizə olunur. İlin əvvəlindən bəri Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan altı dəfə telefonla danışıb, həmçinin "Akkuyu" AES-in üçüncü enerji blokunun inşasının başlanması mərasimində videokonfrans formatında iştirak ediblər. İki ölkə XİN-ləri arasında sıx əlaqələr qurulub.

Antalyada danışıqlar zamanı Cənubi Qafqazda, Yaxın Şərqdə, Şimali



Afrikada, Əfqanıstanda, Ukraynada, Mərkəzi Asiyada, Şərqi Aralıq dənizi və Qara dəniz regionlarındakı vəziyyət müzakirə ediləcək.

Suriya münaqişəsinin siyasi nizamlanmasının gedişatı, Liviyadakı vəziyyətin inkişaf perspektivlərinin də ətraflı müzakirəsi planlaşdırılır.

Görüşdə ikitərəfli ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlığın intensivləşdirilməsi yollarına, yüksək texnologiyalı sahələrdə, o cümlədən hərbi texniki əməkdaşlıqda kooperasiyanın genişləndirilməsi məsələlərinə xüsusi diqqət ayrılacaq.

## HİNDİSTANDA "QARA KİF"Ə YOLUXANLARIN SAYI 40 MİN NƏFƏRİ ÖTDÜ

Hindistan həkimləri "qara kif" xəstəliyinə 40,8 min yoluxma halını aşkarlayıblar. Bu barədə Hindistanın səhiyyə naziri Xarş Vardxan bildirib.

Qeyd edilir ki, xəstəliyin aşkarlandığı 3 000-dən çox pasiyent dünyasını dəyişib.

"Göbələkşəkilli infeksiyalardan ölüm sayı 3 129 hal təşkil edib, eyni zamanda ümumilikdə 40 845 yoluxma halı qeydə alınıb", - nazir brifinqin gedişatında deyib.

"Qara kif" xəstəliyi tibb dünyasında mukormikoz adlanır. İmmun sistemi zəif olanlar, diabet xəstələri və artıq çəkili insanlar bu xəstəliyə yoluxa bilərlər. Xəstəliyin əlaməti yüksək temperatur, nəfəs darlığı, sinə və baş ağrısı, gözlərdə şişkinlik, üzün təktərəfli şişməsi, burun içi və üzdə qaralıqlar, yaddaş azlığıdır.

"Qara kif" xəstəliyi Meksikada da aşkarlanıb.

## İRANIN YENİ PREZİDENTİ VƏZİFƏSİNİN İCRASINA AVQUSTDA BAŞLAYACAQ

İranın yeni seçilmiş prezidenti İbrahim Rəisinin andiçmə mərasiminin keçiriləcəyi tarix məlum olub.

"Report"un məlumatına görə, bu barədə İran parlamentinin sədr müavini Əli Nikzad jurnalistlərə açıqlamasında məlumat verib.

Onun sözlərinə görə, İran prezidenti Həsən Ruhanin səlahiyyət müddəti avqustun 3-də başa çatacaq və həmin gün İbrahim Rəisi and içərək vəzifəsinin icrasına başlayacaq.

Ə.Nikzad deyib ki, mərasimdə yerli və xarici qonaqlar da iştirak edəcəklər. Mərasim parlamentdə keçiriləcək və koronavirus pandemiyası ilə əlaqədar əlavə tədbirlər də görüləcək.

Qeyd edək ki, iyunun 18-də İranda keçirilən prezident seçkilərində İbrahim Rəisi qalib gəlib.

## HULUSİ AKAR: "QARDAŞ QIRĞIZ XALQINA DƏSTƏYİMİZİ DAVAM ETDİRƏCƏYİK"

Türkiyənin milli müdafiə naziri Hulusi Akar Bişkekdə Qırğız Respublikasının müdafiə naziri, briqada generalı Taalaybek Omuraliyevlə görüşüb.

Türkiyənin Milli Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, görüş Qırğız Respublikasının Müdafiə Nazirliyinin binasında keçirilib.

Qarşılama mərasimindən sonra nazirlər təkbətək görüşüb. Bunun ardınca görüş nümayəndə heyətləri çərçivəsində davam edib.

"Qırğızıstanın siyasi sabitliyi və cəmiyyətin əmin-amanlığı hər zaman üstünlük verdiyimiz məsələdir. Türkiyə olaraq qardaş qırğız xalqının əmin-amanlığı, sabitliyi və rifahı istiqamətində dəstəyimizi davam etdirəcəyik", - Hulusi Akar vurğulayıb.



## BAYDEN: TRAMP ABŞ-IN DİGƏR ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİNƏ "AĞLASIĞMAZ ZƏRƏR" VURUB



Donald Tramp ABŞ-ın prezidenti olduğu dövrdə öz fəaliyyəti ilə Birləşmiş Ştatlarla müttəfiqləri və digər dövlətlər arasında münasibətlərə "ağlasığmaz zərər" vurub.

AZƏRTAC xəbər verir ki, ABŞ Prezidenti Cozef Bayden bu barədə Demokratlar Partiyasının Milli Komitəsinin ianə toplama tədbirində çıxış edərkən deyib.

"Avropadan yenicə qayıtmışam. Budur nəticə. Bilirəm ki, hamınız prezident kürsüsündə sonuncu oturan şəxsin beynəlxalq miqyasda vurduğu "ağlasığmaz zərəri" başa düşürdünüz", - deyə Cozef Bayden ad çəkməyərək bildirib. Hazırkı dövlət başçısı sabiq prezidentin ABŞ-ın digər dövlətlərlə münasibətlərinə hansı konkret fəaliyyəti ilə zərər vurduğunu açıqlamayıb.

Qeyd edək ki, Cozef Bayden iyun ayının ortalarında ABŞ administrasiyasının rəhbəri qismində ilk xarici səfərini həyata keçirərək Böyük Britaniyada G7 sammitinə qatılıb. ABŞ Prezidenti daha sonra NATO-nun sammitində iştirak etmək üçün Belçikaya gedib. Bunun ardınca Brüsseldə ABŞ və Avropa İttifaqı arasında yüksək səviyyəli görüş baş tutub. Cozef Bayden sonda Cenevrədə Rusiya lideri Vladimir Putinlə ikitərəfli görüş keçirib.

## KORONAVİRUSUN ÖLKƏ XARİCİNDƏN İDXALOLUNMA HALI 0,3 FAİZDİR

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına bölgələr üzrə yoluxma göstəriciləri açıqlanıb.

Koronavirusinfo.az saytı xəbər verir ki, ölkəmizdə koronavirusa yoluxma hallarının 54,2 faizi paytaxtın payına düşür.

Bundan əlavə, həmin göstərici Abşeron rayonunda 13, Aran rayonlarında 12, Gəncə-Qazax bölgəsində 7,2, Şəki-Zaqatalada 4,1, Quba-Xaçmazda 3,1, Lənkəranda 2,4, Dağlıq Şirvanda 2,3, Yuxarı Qarabağda 1,4, Naxçıvan Muxtar Respublikasında 0,08 faiz təşkil edir. Ölkə xaricindən idxalolunma halı 0,3 faizdir.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Masallı rayonu Kürdəbaz kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-831

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Gözəlov Ərzuman Qurban oğlu, Məmiyeva Firuzə Məmməd qızı, Əliyev Soltan Ağabala oğlu, Əbilova Gülbikə Ələkbər qızı, İsmayılov Əlizaman İsmayıl oğlu, Süleymanov Süleyman Alış oğlu, Həşimov Ərrəhman Bəndalı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zamanov Namiq Zəkəriyyə oğlu, Səmədova Ağanaz Heydər qızı, Şahbazova Gülqayıd Höccəd qızı, Qardaşova Adilə Məmmədyar qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 iyun 2021-ci il

**"Zaqatala rayonu Əliabad qəsəbəsi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 124

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vahabov Əmrulla Abdurahman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Təmrazov İdris Təmraz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 iyun 2021-ci il




## ÖZBƏKİSTANDA YENİ ŞƏHƏR SALINIR

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Fərqanə vadisində Yeni Əndican adlı şəhərin bünövrəsini qoyub.

Prezident bununla bağlı keçirilən mərasimdə yeni şəhərdə tikiləcək binalarda 130 min mənzilin olacağını qeyd edib. Deyib ki, burada 450 mindən çox adam yaşayacaq.

Dövlət başçısının sözlərinə görə, şəhərin ümumi sahəsi 4000 hektar ərazini əhatə edəcək, bunun da 2000 hektarı binalar, sosial obyektlər, sənaye zonası, 2000 hektarı isə yaşıl zona üçün nəzərdə tutulacaq.

İlkin mərhələdə şəhərdə 170 çoxmərtəbəli bina, 3310 mənzil, həmçinin məktəblər, uşaq bağçaları inşa olunacaq. Əvvəl şəhərdə 10 min, tikinti başa çatdıqdan sonra isə 100 min iş yeri olacaq.



## ABŞ-DA İNSANIN KORONAVİRUSA YOLUXUB–YOLUXMADIĞINI MÜƏYYƏN EDƏN MASKA HAZIRLANIB

Amerikalı mütəxəssislər yeni qoruyucu maska hazırlayıblar, həmin maska vasitəsilə onu taxan şəxsin yeni koronavirusa yoluxub-yoluxmadığını müəyyən etmək olar. Bu barədə Massaçusets Texnologiya İnstitutunun saytında dərc olunan məqalədə deyilir.

İnstitutun mütəxəssisləri, Harvard Universitetindən olan həmkarları ilə birlikdə çıxarılıb taxıla bilən kiçik sensorlu prototip maska hazırlayıblar. O həm də, laboratoriya xalatına və digər geyimə tikilə bilər.

Sensor, maska taxıldıqdan təxminən saat yarım sonra nəticə verir. Sensoru, göstəricilər ətrafdakı insanlara görünmədiyi şəkildə işə salmaq olar. Bu cür imkan məxfilik məqsədilə nəzərdə tutulub.

Nəşrdə, bu tip sensorların hazırlanmasına bir neçə il əvvəl başlandığı qeyd edilir. Bunlar əvvəllər Ebola və Zika virus infeksiyalarının aşkar edilməsi üçün tətbiq edilib. Sensordan digər virusların da aşkar edilməsi üçün istifadə edilə bilər.

Federal və yerli hakimiyyət orqanlarının məlumatları əsasında hesablama aparan Cons Hopkins Universitetinin verdiyi məlumata görə, epidemiyanın başlanğıcından bəri ABŞ-da 33,6 milyondan çox koronavirusa yoluxma halı aşkar edilib, 604 mindən çox insan ölüb. ABŞ hər iki göstəriciyə görə dünyada birinci yerdədir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyun - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## 2021-Cİ İLDƏ DÜNYANIN HƏYAT ÜÇÜN ƏN YARARLI ŞƏHƏRİ SEÇİLİB



Yeni Zelandiyanın Oklend şəhəri 2021-ci ildə dünyanın həyat üçün ən yararlı yaşayış məskəni adını qazanıb.

Böyük Britaniyanın "The Economist" jurnalının nəzdində fəaliyyət göstərən "Economist Intelligence Unit" (EIU) analitik bölməsinin apardığı araşdırma nəticəsində məlum olub ki, Yeni Zelandiyanın ən böyük şəhəri olan Oklend Yaponiyanın Osaka və Avstraliyanın Adelaida şəhərlərini geridə qoyaraq, dünyanın 140 şəhəri arasında ən yüksək reytinq qazanıb.

Qeyd edilib ki, mütəxəssislər dünya şəhərləri arasında həyatın keyfiyyətini bir neçə göstərici əsasında müəyyən ediblər. Buraya sabit inkişaf, mədəniyyət, ekologiya, səhiyyə, təhsil və infrastruktur kimi göstəricilər daxildir.

Araşdırmanın nəticələrinə görə, Oklend 96 bal toplayaraq Osakanı 1,8, Adelaidanı isə 2 bal üstələyib. Sonrakı yerləri 93,7 balla Vellinqton (Yeni Zelandiya) və Tokio (Yaponiya), 93,3 balla Pert (Avstraliya) tutub.

Reytinq müəlliflərinin qənaətinə görə, koronavirus pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər Asiya-Sakit okean regionu şəhərlərinin Avropa və Kanada meqapolislərini üstələməsinə imkan yaradıb. Oklend şəhərinin birinci yerə yüksəlməsinin əsas səbəbi də məhz hakimiyyət orqanlarının COVID-19-la mübarizədə qazandığı uğurlar olub.

Siyahıda sonuncu yeri Dəməşq (Suriya) şəhəri tutub. Ondan əvvəlki sıralarda Laqos (Nigeriya), Port-Morsbi (Papua-Yeni Qvineya) və Dəkkə (Banqladeş) şəhərləri yer alıb.

### Yadigar söz

**Çarli Çaplin**

*Dünya hamıya çatacaq qədər böyükdür. Başqasının yerini tutmağa çalışmaqdansa, öz yerin haqqında fikirləş.*

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894